**https://doi.org/10.58225/tim.2026-1-59-64**

**S.S.Sadıqova**
***i.e.n., dosent, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti PHŞ***
***sadiqova.sabina@asoiu.edu.gov.az***
**N.S.Məmmədli**
***magistrant, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti PHŞ***
***nerminmemmedli231@gmail.com***

*Məqalə redaksiyaya daxil olub 03.02.2026*
*The article was received by editorial board on 03.02.2026*
*Статья принята к печати 03.02.2026*

# REGİONAL İQTİSADİ ƏMƏKDAŞLIQDA AZƏRBAYCANIN YERİ VƏ ROLU

**Xülasə**

*Azərbaycanın sonilliklər ərzində formalaşdırdığı regional iqtisadi əməkdaşlıq siyasəti və bu sahədə qazandığı strateji mövqe onun regiondakı iqtisadi liderlik potensialını gücləndirmişdir. Tarixi İpək yolunun bərpası,enerji və nəqliyyat dəhlizlərinin təşəbbüskarı kimi çıxış etməsi,həmçinin dayanıqlı iqtisadi artım göstəriciləri sayəsində Azərbaycan regionda aparıcı amilə çevrilmişdir. Müstəqillikdən sonrakı dövrdə həyata keçirilən enerji layihələri və multimodal nəqliyyat marşrutları ölkənin tranzit və logistik imkanlarını əhəmiyyətli dərəcədə genişləndirmişdir. Tədqiqat onu da göstərir ki, Azərbaycanın regional əməkdaşlıq təşəbbüslərində – demokratiya və iqtisadi inkişaf uğrunda təşkilat(GUAM),iqtisadi əməkdaşlıq təşkilatı(İƏT),türk dövlətləri təşkilatı(TDT) və s. fəal iştirakı həm siyasi sabitliyin, həm də iqtisadi dayanıqlığın formalaşmasına töhfə verdi. Bu kontekstdə ölkə, regionun inteqrasiyasında körpü rolunu oynamaqla yanaşı, strateji iqtisadi mərkəz kimi çıxış edir.*

***Açar sözlər:*** *Azərbaycan, regional əməkdaşlıq, strateji mövqe, enerji siyasəti,nəqliyyat-logistika, beynəlxalq təşkilatlar.*

## Regional iqtisadi əməkdaşlıq

Müasir dövrdə ölkələr arasında iqtisadi əlaqələrin genişlənməsi və qarşılıqlı asılılığın artması regional əməkdaşlıq formatlarını zəruri etmişdir. Regional iqtisadi əməkdaşlıq, coğrafi yaxınlıqda yerləşən dövlətlərin öz aralarındakı iqtisadi potensialı birləşdirərək, ticarət, sərmayə, nəqliyyat və enerji sahələrində birgə fəaliyyətə üstünlük verməsi şəklində başa düşülür. Bu yanaşma, iştirakçı ölkələr arasında iqtisadi sabitliyi gücləndirməklə yanaşı, sosial rifahın yüksəlməsinə və uzunmüddətli inkişaf imkanlarının genişlənməsinə töhfə verir. Bu əməkdaşlıq müxtəlif formatlarda – azad ticarət zonaları, gömrük ittifaqları və regional iqtisadi birliklər vasitəsilə reallaşdırılır. Qlobal təcrübə göstərir ki, bu cür inteqrasiya təşəbbüsləri regional bazarların formalaşması, xarici investisiyaların cəlbi və strateji infrastruktur layihələrinin gerçəkləşdirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Azərbaycan da bu proseslərdən kənarda qalmayaraq, öz geosiyasi və iqtisadi mövqeyinə əsaslanaraq regional əməkdaşlıqda fəal iştirak edir. Ölkənin tranzit imkanları, enerji resursları və sabit daxili mühiti, onu regionun iqtisadi sistemində mühüm aktora çevirir.

İqtisadi əməkdaşlığın möhkəmləndirilməsini şərtləndirən əsas amillər.

Dünya ölkələrinin iqtisadi inkişaf meyarlarına əsaslanaraq təşviq edilən layihələr kontekstində Azərbaycanın irəli sürdüyü inteqrasiya yönümlü təşəbbüslər gələcək mərhələlərdə də əhəmiyyətini təsdiqləyəcədir. Vətənimizin dünya iqtisadi inteqrasiyasına qarışmasını şərtləndirən əsas amillər aşağıdakılardır [1]:

1. Coğrafi mövqedən Respublikamızın torpaq-iqlim şəraitinin əlverişliliyi - Qərb və Şərq, Şimal və Cənub arasında əlaqələrin yaradılmasında ölkəmizin ərazisi mühüm rol oynayır. Azərbaycandan dünya ticarət və hava yollarına asanlıqla çıxmaq potensialları vardır. Xarici iqtisadi əlaqələrin yaradılması üçün əlavə xərclər tələb olunmur,xarici iqtisadi əlaqələrin inkişafı üçün yüksək səviyyədə inkişaf etmiş nəqliyyat və infrastruktur sistemi ticari-iqtisadi əlaqələri səmərəli aparmaq üçün əlverişli şərait yaradır;

2. Respublikamızda zəngin təbii xammal və əmək ehtiyatlarının mövcudluğu;

3. İnvestisiya və kapital resurslarının məhdudluğu və çatışmaması;

4. Texniki-texnoloji potensialın çatışmaması və onlara kəskin ehtiyac olması;

5. Ölkə iqtisadiyyatının mövcud vəziyyəti elədir ki, ölkə əhalisinin bütün məhsul növlərinə olan ehtiyaclarını öz istehsalı hesabına təmin etmək imkanına malik deyildir. Ona görə də, beynəlxalq ticarətin Azərbaycanın iqtisadi inkişafında rolu böyükdür [1];

6. Müstəqil dövlətimizin siyasi durumu. Azərbaycan dövlətinin müstəqilliyini qorumaq və gücləndirmək zərurəti

Respublikanın əldə etdiyi siyasi istiqlalı möhkəmlətmək üçün xarici ölkələrlə iqtisadi əməkdaşlıq həm siyasi, həm də iqtisadi cəhətdən çox vacibdir.Odlar yurdumuz dünya təsərrüfatının tərkib hissəsinə çevrilməklə, iri dövlətlərin maraq dairəsinə daxil olur. D.Rikardo özünün xarici ticarət nəzəriyyəsinindən belə qənaətə gəlir ki, «ticarət bütün sivilizasiyalı millətləri bir ümum dünya icmasında birləşdirəcəkdir» [1].

Regional iqtisadi əməkdaşlığın əsas istiqamətləri.

Azərbaycan regional iqtisadi əməkdaşlıqda Cənubi Qafqaz və daha geniş Avrasiya regionunda strateji cofrafi mövqeyi, enerji resursları, nəqliyyat-logistika və üzv olduğu regional təşkilat imkanlarıyla mühum mövqedədir. Regional iqtisadi əməkdaşlıqda ölkəmizin yeri və rolunun təhlil edərkən onun əsas istiqamətlər üzrə izahını vermək lazımdır. Bunlar aşağıdakılardır:

**1. Strateji coğrafi mövqeyi -** Orta Dəhliz (Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu) Avropa ilə Asiyanı birləşdirən əsas ticarət marşrutlarından biridir və son illərdə şimal və cənub dəhlizlərindəki geosiyasi risklər fonunda əhəmiyyəti artmışdır. Azərbaycan bu marşrut üzərində strateji rol oynayır, nəqliyyat infrastrukturuna qoyduğu investisiyalar və regional əməkdaşlıqlar vasitəsilə qlobal tranzit mərkəzinə çevrilməyə çalışır. Bu səylər, qeyri-neft sektorunun inkişafı və iqtisadi diversifikasiya baxımından da ölkəyə yeni imkanlar yaradır.Orta əsrlərdən etibarən Avropa və Asiya arası ticarət yolları, o cümlədən İpək Yolu əsas hərəkət istiqamətlərindən biri olub. Bu tarixi miras üzərində formalaşan Orta Dəhliz bu gün qlobal ticarətin mühüm hissəsidir. Orta Dəhliz - yəni Transxəzər marşrutu - Şərqi Asiya, Mərkəzi Asiya, Xəzər regionu, Cənubi Qafqaz və Avropanı birləşdirir,4,256 km dəmir yolu və 508 km dəniz yolu daxil olmaqla multimodal daşınma sistemlərini ehtiva edir. Azərbaycan bu marşrutun əsas ölkələrindəndir və Xəzər dənizi vasitəsilə Aktau-Bakı limanlarını birləşdirir.

Azərbaycan bu dəhlizin effektivliyini artırmaq üçün çoxsaylı layihələr həyata keçirir,2017-ci ildə istifadəyə verilən Bakı-Tbilisi-Qars dəmir yolu Çin-Avropa daşınma vaxtını 50%-dən çox azaldıb.Həmçinin,2018-ci ildə istifadəyə verilən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və Ələt Azad İqtisadi Zonaları da logistik imkanları artırır.Azərbaycan Prezidentinin 2015-ci il fərmanı ilə Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası yaradıldı. 2023-cü il Noyabrda 2024-2026-cı illər üzrə beynəlxalq daşınmalarda tranzit potensialın artırılmasına dair əməliyyat planı təsdiqləndi[2].

Qlobal ticarət və iqtisadi çeşidləndirmə Orta Dəhliz Azərbaycanı qlobal ticarət şəbəkəsinə inteqrasiya etməklə yanaşı, qeyri-neft sektorunun da inkişafına təkan verir. Statistikaya görə, 2021-ci ildə qeyri-neft ixracı 2.7 milyard dollar olub ki, bu da əvvəlki illə nisbətən 47% artımdır [2]. Multimodal daşınmanın inkişafı Azərbaycanın dəmir yolu və dəniz limanı layihələrinə yatırdığı investisiyalar, məsələn Bakı – Tbilisi - Qars xəttində Gürcüstan tərəfinin modernizasiyasına 100 milyon dollarlıq investisiya, multimodal sistemlərin inkişafına kömək edir. Zəngəzur dəhlizinin açılması da regionda yük dövriyyəsini və ticarəti artırmaq potensialına malikdir. Bakı Beynəlxalq Dəniz Limanı hazırda illik 15 milyon ton yük dövriyyəsinə malikdir

və bu həcmin 25 milyona çatdırılması planlaşdırılır. Orta Dəhlizdə daha yüksək səmərəlilik və iqtisadi fayda üçün aşağıdakı addımlar tövsiyə olunur [2]:

- rəqəmsallaşma və gömrük prosedurlarının sadələşdirilməsi;
- dəhlizi yalnız nəqliyyat deyil, iqtisadi zonaya çevirmək;
- yüksək səviyyəli regional və beynəlxalq əməkdaşlıqlar;
- multimodal logistik mərkəzlərin gücləndirilməsi və texniki infrastrukturun yenilənməsi; qeyri-neft sektoruna investisiyaların artırılması üçün dövlət-özəl tərəfdaşlıqlar.

Azərbaycan Orta Dəhliz vasitəsilə yalnız tranzit ölkə olmaqla kifayətlənmir, eyni zamanda bu marşrutun iqtisadi gücündən istifadə edərək regional və qlobal ticarətdə fəal oyunçuya çevrilir. Davamlı əməkdaşlıq, infrastruktur yatırımları və idarəetmənin modernləşdirilməsi ilə bu potensial tam reallaşa bilər.

**2. Enerji yolları və siyasəti -** Ölkəmiz xam neft və təbii qaz ehtiyatlarına görə regionda lider mövqedədir. Buradan Avropaya birbaşa enerji ötürülməsi üçün strateji kəmərlər mövcuddur. Bunlar aşağıdakılardır:

Bakı -Tbilisi-Ceyhan neft kəməri(BTC)-əsas neft ixrac kəməri hesab olunur və Azərbaycan neftinin Gürcüstan və Türkiyə ərazisindən keçərək Aralıq dənizinə, Ceyhan limanına çatdırılmasını təmin edir. Bu kəmər 2006-cı ildən istismardadır və təxminən 1768 kilometr uzunluğa malikdir. Xəzər hövzəsi neftinin beynəlxalq bazarlara çıxarılmasını Rusiya və İranı keçmədən həyata keçirmək layihənin əsas məqsədidir.

Bakı-Tbilisi-Ərzurum qaz kəməri - Bakı-Tbilisi-Ərzurum qaz boru kəməri, həmçinin Cənubi Qafqaz Boru Kəməri kimi tanınır, 2007-ci ildən fəaliyyətdədir və ölkəmizin qazının Gürcüstan üzərindən Türkiyənin Ərzurum şəhərinə nəqlini təmin edir. Bu kəmər "Şahdəniz" qaz yatağının birinci fazasından hasil olunan qazın ixracı üçün mühüm rol oynayır. Bu kəmərin uzunluğu təxminən 692 kilometrdir.

Cənub Qaz Dəhlizi-layihəsiylə Ölkəmizin qazı Gürcüstan, Türkiyə, Yunanistan, Albaniya və İtaliya yoluyla Avropaya ixrac olunur. Bu layihə Azərbaycan qazının Avropaya çatdırılmasını hədəfləyən iri enerji layihəsidir və üç əsas kəməri – Bakı-Tbilisi-Erzurum Qaz Kəməri(BTE), Transanadolu Təbii Qaz Boru Kəməri(TANAP) və Transadriatik Qaz Boru Kəməri(TAP)-ni birləşdirir.Dəhliz "Şahdəniz-2" yatağından çıxarılan təbii qazın Avropa bazarlarına təhlükəsiz və dayanıqlı şəkildə ötürülməsini təmin edir. Layihə 2013-cü ildən artıq tikilməyə başlanmış və 2020-ci ildə tam başa çatdırılmışdır.

TANAP boru kəməri Azərbaycan qazının Türkiyə ərazisindən keçərək Avropaya ixracını təmin edən əsas infrastruktur layihələrindən biridir. 2018-ci ildən fəaliyyətə başlayan bu kəmər Gürcüstan-Türkiyə sərhədindən başlayır və Türkiyənin qərbində, Yunanıstan sərhədinədək davam edir. Onun illik ötürmə gücü ilkin mərhələdə 16 milyard kubmetrdir və gələcəkdə genişlənmə imkanına malikdir.

TAP layihəsi TANAP-ın davamı olaraq Yunanıstan, Albaniya və Adriatik dənizindən keçərək İtaliyanın cənubuna qədər uzanır və ölkəmizin qazını birbaşa Avropa bazarına çatdırır. 2020-ci ilin sonunda istifadəyə verilən bu kəmər 878 kilometr uzunluğundadır və ilkin mərhələdə ildə 10 milyard kubmetr qaz ötürmək gücünə xasdır. TAP layihəsi Avropanın enerji mənbələrini şaxələndirməsinə və enerji təhlükəsizliyinin güclənməsinə xidmət edir.

Azərbaycanın enerji sistemi həlledici nöqtədədir. Uzun müddətli və əhatəli təbii qaz və elektrik subsidiyaları enerji səmərəliliyinə investisiyaları və irəliləyişi təşviq etməmişdir. Enerji və iqtisadi artım üçün təbii qaza etibar iqtisadiyyatın diversifikasiyasını məhdudlaşdırmış və beynəlxalq fosil yanacaq bazarlarının dəyişkənliyinə məruz qalma səviyyəsini artırmışdır. COP28 öhdəlikləri və digər problemləri nəzərə alaraq, Azərbaycan hökuməti son illərdə enerji səmərəliliyinin artırılması üçün bir sıra tədbirlər həyata keçirmişdir. 2022-ci ildə Azərbaycanın enerji səmərəliliyi üzrə ilk hüquqi çərçivəsi qüvvəyə minib və o vaxtdan bəri binalar və avadanlıqlar üçün standartlar və normalar, enerji auditləri, küçə işıqlandırmasının səmərəliliyinin artırılması kimi məsələləri əhatə edən əlavə qanunvericiliklər qəbul olunmuşdur. Yeni Sosial-İqtisadi İnkişaf Strategiyası və Enerji Səmərəliliyi Fondu bu sahədəki siyasət səylərinin

gücləndiyini göstərir. Siyasət artıq çərçivə qanunlarından bazara tətbiq olunan normaların həyata keçirilməsinə keçməkdədir [3].

Bu, Azərbaycanın iqlim öhdəlikləri ilə uyğun hədəfli tədbirlər hazırlaması üçün əlverişli zamandır. COP29-a ev sahibliyi etmiş ölkə olaraq, Azərbaycan bu sahədə liderlik göstərə və təşviq edə bilər. Enerji səmərəliliyi həmçinin ölkənin iqtisadi və enerji sektorunun uzunmüddətli inkişafını dəstəkləyə, qlobal fosil bazarlarının dəyişkənliyinə məruz qalmanı azalda bilər [3].

Xüsusilə bina, sənaye, nəqliyyat və kənd təsərrüfatı sektorlarında səmərəlilik potensialı böyükdür. Qaz və neftə qənaət etməklə yanaşı, iqtisadi, sosial və ekoloji faydalar təmin oluna bilər.Azərbaycanın enerji səmərəliliyi sahəsində mövcud vəziyyətinin təhlili,siyasətlərin formalaşdırılması və həyata keçirilməsi üçün tövsiyələr zəruridir. Yol xəritəsi formatında təqdim olunan bu tövsiyələr 2040-cı ilə qədər olan dövr üçün istiqamət verir [3].

Əsas tövsiyələrdən biri enerji səmərəliliyi üzrə məqsədlərin müəyyən edilməsidir – bu, texniki normaların, minimum enerji performans standartlarının və digər yeni qanunvericiliklərin uğurla tətbiqi üçün vacibdir.Dünyanın bir çox ölkəsində artıq yüksək səmərəli, aşağı karbonlu texnologiyalar – məsələn, istilik nasosları və elektrik nəqliyyat vasitələri – sürətlə yayılmışdır. Azərbaycan bu sahədə beynəlxalq təcrübələrdən faydalana bilər. Bununla yanaşı, dəqiq enerji səmərəliliyi məlumatlarının toplanması, ictimai və institusional məlumatlandırma bu siyasətlərin uğurla həyata keçirilməsində mühüm rol oynayacaq.

**3. Nəqliyyat və tranzit qovşağı-**1998-ci ildən etibarən Azərbaycan Avropa ilə Asiyanı birləşdirən Avropa-Qafqaz-Asiya(TRACECA) nəqliyyat dəhlizində mühüm mövqe tutmağa başlayıb. Bu marşrut çərçivəsində ölkə multimodal daşımaların inkişafına dair beynəlxalq sazişə qoşulub və 2010-cu ildə onun ərazisindən təxminən 51.7 milyon ton yük daşınıb. Bu daşımaların 42 faizi avtomobil yolları ilə, 40 faizi dəmir yolu vasitəsilə, qalan hissəsi isə dəniz nəqliyyatı ilə həyata keçirilib. TRACECA vasitəsilə daşınan yüklərin əhəmiyyətli hissəsi tranzit təyinatlı olub və əsasən Mərkəzi Asiya ölkələrindən, xüsusilə Qazaxıstan və Türkmənistandan neft və neft məhsullarını əhatə edib. Bu daşımalar Azərbaycanın büdcəsinə yüz milyonlarla dollar həcmində gəlir gətirib və ümumi nəqliyyat dövriyyəsinin dörddə birini təşkil edib.Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Xəzər bölgəsində ən qədim və strateji əhəmiyyətə malik nəqliyyat mərkəzlərindən biri sayılır. XX əsrin əvvəlində liman ildə 6.5 milyon tona yaxın yük qəbul edirdi. 1970-ci illərin ortalarında bu göstərici 24 milyon tonu ötərək zirvəyə çatmışdı ki, bunun da böyük hissəsi xam neftin daşınmasına aid idi. Sovet dövründə liman həm də hərbi və kommersiya məqsədləri ilə istifadə olunurdu. Hazırkı dövrdə Bakı limanı əsasən beynəlxalq tranzit daşımalarına xidmət edir və burada emal olunan yüklərin təxminən 77 faizi tranzit təyinatlıdır. Liman regional logistik şəbəkənin əsas həlqələrindən biri olaraq Avropa-Asiya ticarətində önəmli funksiyanı yerinə yetirir.Azərbaycan son illər nəqliyyat infrastrukturunun yenilənməsi istiqamətində genişmiqyaslı layihələr həyata keçirib. 2010-cu ilə qədər ölkədə 5500 kilometrdən çox magistral və yol şəbəkəsi əsaslı şəkildə yenidən qurulmuş, əlavə olaraq 870 kilometr uzunluğunda yollar üzərində təmir və inşaat işləri davam etdirilmişdir. Bu təşəbbüslərin əsas məqsədi nəqliyyat axınının səmərəliliyini artırmaq, regionlararası əlaqələri gücləndirmək və beynəlxalq standartlara cavab verən şəbəkə qurmaq olmuşdur. Yenilənən yol infrastrukturu həm ölkədaxili yük və sərnişin daşımaları, həm də beynəlxalq ticarət üçün əlverişli şərait yaradıb [4].

**4. Azərbaycanın üzv olduğu regional təşkilatlar:**

GUAM-1997-ci ildə təsis edilib,əsas məqsədi regional əməkdaşlıq,təhlükəsizlik və iqtisadi inkişafdır. Üzv ölkələr arasında ticarət dövriyəsi artmaqda davam edir,xüsusilə nəqliyyat-logistika sahəsində əməkdaşlıq güclənir. Azərbaycanla GUAM təşkilatı üzrə ümumi ticarət dövriyyəsi: Azərbaycan-Gürcüstan ilə 2023-cü il üzrə ümumi ticarət dövriyyəsi 1 milyard 515.98 milyon ABŞ dolları olmuşdur.Azərbaycan-Ukrayna ilə 2023-cü il üzrə ümumi ticarət dövriyyəsi 459,62 milyon ABŞ dolları olmuşdur.Azərbaycan-Moldova ilə 2023-cü il üzrə ümumi ticarət dövriyyəsi 10.1 milyon ABŞ dolları olmuşdur [5].

İƏT-1985-ci ildə təsis edilib.Azərbaycan daxil olmaqla,10 ölkə əsasən də Cənubi və Orta Asiya ölkələri bu təşkilata üzvdür. Əsas məqsədi regional ticarət və iqtisadi inteqrasiyanın

artırılmasıdır. İƏT çərçivəsində Azərbaycanın tucarət dövriyyəsi artmaqdadır xüsusən enerji və kənd təsərrüfatı məhsullarının ixraciyla bağlı əməkdaşlığa malikdir:

2023-cü ildə Azərbaycan ilə İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) üzv ölkələri arasında ümumi ticarət dövriyyəsi təxminən 1.2 milyard ABŞ dolları təşkil etmişdir. Azərbaycanın İƏT ölkələrinə ixracı əsasən neft və qaz məhsulları, kimya sənayesi və kənd təsərrüfatı məhsullarından ibarətdir. İdxal isə əsasən sənaye avadanlıqları, maşınqayırma məhsulları və kənd təsərrüfatı mallarını əhatə edir. Azərbaycanın İƏT ölkələri ilə ticarət əlaqələri xüsusilə Türkiyə, İran və Pakistan ilə sıxdır. 2023-cü ildə Azərbaycanın Türkiyə ilə ticarət dövriyyəsi 900 milyon ABŞ dolları, İranla 200 milyon ABŞ dolları, Pakistanla isə 100 milyon ABŞ dolları səviyyəsində olmuşdur [6].

TDT-2009-cu ildə təsis edilib.Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan bu təşkilata üzv ölkələrdir. Əsas məqsəd ümumi tarixi və mədəni əlaqələrə əsaslanaraq iqtisadi və siyasi əməkdaşlığın inkişafıdır.

2023-cü ildə Azərbaycanın TDT üzv ölkələri ilə ümumi ticarət dövriyyəsi təxminən 9 milyard ABŞ dolları təşkil etmişdir. Bu göstərici əvvəlki illə müqayisədə 23.7% artım deməkdir. TDT ölkələri ilə ticarət dövriyyəsi, Azərbaycanın ümumi xarici ticarət dövriyyəsinin 16%-ni təşkil etmişdir. 2024-cü ildə Azərbaycanın TDT üzv ölkələrinə qeyri-neft məhsulları ixracı Türkiyə üzrə 542.3 milyon ABŞ dolları, Qazaxıstan üzrə 131.3 milyon ABŞ dolları, Özbəkistan üzrə 39.3 milyon ABŞ dolları olmuşdur [7].

Müstəqil Dövlətlər Birliyi (MDB) - Azərbaycan 1991-ci ildən etibarən MDB-yə üzvdür. MDB ölkələriylə ticarət respublikamızın ümumi xarici ticarətinin mühüm hussəsini təşkil edir. Əsas məqsədi siyasi,iqtisadi,təhlükəsizlik və humanitar əməkdaşlığı inkişaf etdirməkdir.

Azərbaycanın MDB ölkələri ilə ticarət dövriyyəsi 2023-cü ildə təxminən 5.7 milyard ABŞ dolları təşkil etmişdir. Bu, əvvəlki ilin eyni dövrü ilə müqayisədə 9.5% artım deməkdir. Ən yüksək ticarət dövriyyəsi Rusiya ilə olub – 3.94 milyard dollar, ardınca Belarus – 404 milyon dollar, Qazaxıstan – 394 milyon dollar və Özbəkistan – 100 milyon dollar səviyyəsində olmuşdur. Ən aşağı ticarət dövriyyəsi isə Tacikistan ilə qeydə alınıb – 5.2 milyon dollar [6].

**NƏTİCƏ**

Bütün bunlar göstərir ki,Azərbaycanın regional iqtisadi əməkdaşlıqdakı rolu onun əlverişli coğrafi mövqeyi, zəngin enerji resursları və nəqliyyat layihələrində fəal iştirakı sayəsində getdikcə güclənir. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Qars və Zəngəzur dəhlizi kimi strateji layihələr ölkəni regionun əsas enerji və nəqliyyat mərkəzinə çevirib. Azərbaycanın bu təşəbbüslərdə həm icraçı, həm də təşəbbüskar kimi çıxış etməsi, onun regional əməkdaşlıqda aktiv və etibarlı tərəfdaş olduğunu göstərir. Bu da ölkənin regionda sabitlik, iqtisadi inkişaf və inteqrasiyaya verdiyi mühüm töhfənin göstəricisidir.

***İstifadə edilmiş ədəbiyyat:***

**1.** Əliyev, Aydın. (2003). Azərbaycanın iqtisadi siyasəti: Azərbaycanın xarici ticarət-iqtisadi əlaqələri. Bakı: Qanun Nəşriyyatı.

**2.** Rafi, Dilara. (2024). Azerbaijan's Strategic Role in the Middle Corridor. Munich Personal RePEc Archive (MPRA), https://mpra.ub.uni-muenchen.de/122499/

**3.** İnternational Energy Agency (IEA). Energy Efficiency Policy in Azerbaijan:A Roadmap. Paris: IEA, 2021. https://www.iea.org/reports/energy-efficiency-policy-in-azerbaijan-a-roadmap

**4.** TRACECA (Transport Corridor Europe-Caucasus-Asia). Review on Measures Aimed at Implementation of the Basic Multilateral Agreement on International Transport for Development of the Europe-the Caucasus-Asia Corridor. TRACECA Permanent Secretariat, 2016. https://traceca-org.org/fileadmin/fm-dam/pdfs/til_igcmeets/16th/docs/eng/Appendix_11_Review%20on%20measures_Eng.pdf

**5.** APA.az. (n.d.). Official news agency of Azerbaijan. Retrieved May 15, 2025, from https://apa.az

**6.** Azərbaycan Dövlət Statistika Komitəsi. (n.d.). Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. https://www.stat.gov.az

**7.** Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi. (2024). Rəsmi statistik göstəricilər və ticarət məlumatları. Əldə olunub: https://customs.gov.az

**S.S.Sadigova**
*Candidate of Economic Sciences, associate professor,*
*Azerbaijan State Oil and Industry University*
**N.S.Mammadli**
*master student, Azerbaijan State Oil and Industry University*

## Azerbaijan's place and role in regional economic cooperation

**Abstract**

*Undoubtedly, the regional economic cooperation policy that Azerbaijan has developed in recent years and the strategic position it has gained in this field have significantly strengthened its economic leadership potential in the region. Thanks to the restoration of the historical Silk Road, its role as an initiator of energy and transport corridors, as well as its stable economic growth indicators, Azerbaijan has become a leading actor in the region. The energy projects and multimodal transport routes implemented in the post-independence period have substantially expanded the country's transit and logistics capabilities. The study also shows that Azerbaijan's active participation in regional cooperation initiatives – Organization For Democracy And Economic Development(GUAM),Economic Cooperation Organization ECO, Organization of Turkic States(OTS), etc. – has contributed significantly to the formation of both political stability and economic resilience. In this context, Azerbaijan not only plays a bridging role in the region's integration but also acts as a strategic economic hub.*

***Keywords:*** *Azerbaijan, regional cooperation, strategic position, energy policy, transport and logistics, international organizations.*